# Qəbələ sosial-iqtisadi inkişafın və mədəni həyatın dönüş mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2012-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

(Əvvəli 5-ci səhifədə).

"Ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı" proqramına uyğun olaraq təhsilin informasiyalaşdırılması sahəsində müəyyən işlər görülmüşdür. Hazırda rayonun ümumtəhsil məktəblərində 481 kompüterdən istifadə olunur. Yeni dərs ilində məktəblərimizə daha 16 kompüter dəsti verilmişdir. Təhsil ocaqlarında bu gün 43 kompüter sinifi fəaliyyət göstərir.

Məktəblərin dərsliklə təminatı yaxşılaşdırılmışdır. Hesabat ilində rus və azərbaycan bölmələrinə 153 adda 50.247 ədəd dərslik və müəllimlər üçün tədris vəsaiti verilmiş, fənn kabinetlərini zənginləşdirmək üçün 64.100 manatlıq əyani vəsait və laboratoriya avadanlığı alınmışdır.

Pedoqoji kollektivlər 2011-2012-ci tədris ilini müvəffəqiyyətlə başa vurmuş, on birinci sinifi bitirən 1.393 şagirdin 1.197 nəfərinə orta təhsil haqqında attestat verilmişdir. Qəbələ şəhər 4 saylı tam orta məktəbin məzunu Ağayeva Günel Vüqar qızı təhsil müəssisəsini qızıl medalla bitirmişdir.

Ali məktəblərə qəbul olmaq üçün sənəd verən 809 şagirddən 426-sı müxtəlif ali məktəblərə qəbul olunmuşdur. Bu da əvvəlki illə müqayisədə 33 nəfər çoxdur. Ali məktəblərə qəbulun nəticələrinə görə şəhər 1, 2, 3, 4 saylı, Vəndam 1, 2, 3 saylı, Zarağan 1, 2 saylı, Tüntül, Nohurqışlaq, Xırxatala və Əmirvan kənd tam orta məktəbləri fərqlənmişlər.

Gənc nəslin təlim-tərbiyəsində qabaqcıl müəllimlərin təcrübəsinin öyrənilərək yayılması, kadrların əməyinin layiqincə qiymətləndirilməsi sahəsində də bir sıra işlər görülmüşdür.

Ümumtəhsil məktəbləri 2012/2013-cü tədris ilinə 16.611 nəfər şagird, 1.052 sinif komplekti ilə başlamışdır. Birinci siniflərə 1.544 şagird qəbul edilmişdir. Bu da əvvəlki illə müqayisədə 124 nəfər çoxdur.

2012-ci ildə rayon mərkəzi xəstəxanasının büdcə xərcləri 1.846.802 manat olmuş, dərman və sarğı materiallarının alınmasına 210.636 manat vəsait xərclənmişdir. Əhaliyə 128.690 manatlıq pulsuz dərman verilmişdir.

Xəstəxananın binasında əsaslı təmir işləri aparılmışdır. Müəssisəyə ötən il 47.996 manatlıq tibbi avadanlıq alınmışdır.

Hazırda səhiyyə ocaqlarında həkimlərin sayı 131, tibb işçilərinin sayı isə 343 nəfərdir. Hesabat ilində stasionar xəstələrin sayı 3.693 nəfər, cərrahi əməliyyatların sayı 367 olmuşdur. İl ərzində 1.893 doğuş baş vermişdir.

Respublika Qan Bankının köməkliyi ilə xəstəxanaya müntəzəm olaraq bütün qruplar üzrə qan gətirilmiş və təyinatı üzrə istifadə edilmişdir. Talasemiyalı xəstələrə müntəzəm olaraq qan köçürülməsi təmin olunmuşdur. Müəllimlərin, məktəblilərin və obliğat qrupların tibbi müayinəsi keçirilmişdir. Müayinə olunması nəzərdə tutulmuş 6.539 nəfərdən 5.213 nəfər müayinəyə cəlb edilmişdir. İl ərzində 8.535 nəfərə tuberkulin sınağı qoyulmuş, 4.580 profilaktik peyvənd edilmişdir.

Respublika Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun əməkdaşları tərəfindən rayonumuzda 25 göz əməliyyatı keçirilmiş, 170-dən çox göz xəstələri müayinə olunmuşlar. Milli Onkologiya Mərkəzinin mütəxəssisləri səyyar klinika ilə rayonumuza gəlmiş, 655 nəfəri müayinə etmişlər.

2012-ci ildə Qəbələ Müalicə Diaqnostika Mərkəzinin poliklinika şöbəsinə müraciətlərin sayı 25.622, endoskopiya kabinetində müayinələrin sayı 685, stasionar xəstələrin sayı 1.125 nəfər, cərrahiyə əməliyyatlarının sayı 1.130, hemodializ seanslarının sayı 8.494, ultrasəs müayinələrinin sayı 1.256, rentgen müayinələrinin sayı 7.187, kompüter tomoqrafik müayinələrin sayı 146, fizioterapiya prosedurların sayı 4.277, kliniki laboratoriya müayinəsi 134.074 olmuşdur. Mərkəzdə ötən il 4 nəfər donordan 4 nəfər xəstəyə böyrək transplantasiya edilmişdir.



*Respublika məktəbliləri arasında «Gənc xilasedici və yanğınsöndürənlər»in yarışı.*



*Bum qəsəbəsində yeni tikilmiş uşaq bağçası.*

*Fotolar Səhrab Umuyevindir.*

Rayonumuzda mədəni-maarif işlərinin təşkili ilə bağlı 15 mədəniyyət evi, 22 klub müəssisəsi, Heydər Əliyev Mərkəzi, incəsənət məktəbi, rəsm qalereyası, muzeylər şəbəkəsi, mərkəzləşdirilmiş kitabxana sistemi və tarix-bədii qoruğu fəaliyyət göstərir. Hesabat ilində mədəniyyət və turizm şöbəsi tərəfindən tarixi hadisələrə, əlamətdar günlərə, yubileylərə və dövlət bayramlarına həsr olunmuş xeyli mədəni-kütləvi tədbirlər keçirilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyev rayonumuza səfəri zamanı Qəbələnin son illər ərzində beynəlxalq mərkəzə çevrildiyini bildirmiş, burada keçirilən ənənəvi musiqi festivallarının artıq dünyada məşhur olduğunu və dünyanın aparıcı sənət adamlarının bu tədbirlərə qatıldığını bildirmişdir.

Ötən il rayonumuzda ənənəvi IV Qəbələ Beynəlxalq Musiqi Festivalı keçirilmiş və Azərbaycanın görkəmli musiqiçiləri ilə yanaşı dünyanın 17 ölkəsindən 300-dək məşhur ifaçı tədbirdə çıxış etmişdir.

Qeyd olunmalıdır ki, Heydər Əliyev Fondu tərəfindən Azərbaycanın milli mədəniyyət nümunələrinin və musiqi irsinin qorunub saxlanılması və dünyada təbliğ edilməsi sahəsində görülən işlər çox mühüm əhəmiyyət kəsb edir. Fondun prezidenti və mədəniyyətimizin hamisi Mehriban xanım Əliyevanın bu istiqamətdə həyata keçirdiyi tədbirlər, onun rəhbərliyi ilə Qəbələdə təşkil olunan beynəlxalq festivallar, ölkəmizin musiqi ənənələrinin, mədəniyyətinin və ümumilikdə Azərbaycan xalqının dünyada tanınmasına çox böyük töhfələr verir.

2012-ci ildə Qəbələ İncəsənət Məktəbi şagirdlərinin də VIII Uşaq Xor Kollektivləri və "İstedadlı uşaqlar" respublika müsabiqələrində uğurlu çıxışları olmuşdur. Respublika Muzey Mərkəzində təşkil olunmuş xalq sənətkarlarının sərgisində Qəbələ sənətkarlarının tətbiqi sənət nümunələri nümayiş etdirilmişdir.

Rayon mədəniyyət evinin "Gülbuta" folklor qrupunun, Bum qəsəbə mədəniyyət evinin "Zopu-zopu" folklor etnoqrafik rəqs ansamblının, Hacıalılı kənd mədəniyyət evinin "Gülüstan" folklor qrupunun xalq yaradıcılığı və bədii özfəaliyyətin inkişaf etdirilməsi istiqamətində gördüyü işlər təqdirəlayiqdir.

Mərkəzləşdirilmiş kitabxana sisteminin ümumi kitab fondu 163.249 nüsxə, oxucusunun sayı 24.381 nəfər, kitab verilişi isə 294.581 nüsxə olmuşdur. Hesabat ilində sistemə 1.613 nüsxə yeni ədəbiyyat daxil olmuşdur.

(Ardı 7-ci səhifədə).